

**Səməndərov Seyfəddin Sabir oğlu**

i.f.d, dos.
AMEA, İqtisadiyyat İnstitutu

AZ1143, Bakı şəhəri,
Hüseyn Cavid pr., 31.

seyfeddinsamandarov@mail.ru

UOT 368:330.8 (479.24)

# AZƏRBAYCANDA SIĞORTA İŞİNİN TƏŞKİLİ TARİXİNDƏN: XX ƏSRİN 20-30-cu İLLƏRİ

səh. 165-182

**Xülasə**

*Tədqiqatın məqsədini* – Azərbaycanda sığorta təsisatlarının genezisi və institusional tarixinə dair faktların tədqiqi təşkil edir;

*Tədqiqatın metodologiyası* – retrospektiv təhlil, təhlilin sintez, deduksiya, müqayisəli üsulları;

*Tədqiqatın nəticəsi* – Azərbaycanda XX əsrin 20-30-cu illərində sığorta işinin təşkili məsələləri tarixi-iqtisadi aspektdən qiymətləndirilmişdir;

*Tədqiqatın məhdudiyyətləri* – tədqiqat obyektinin spesifikliyi, elmi informasiyanın əldə olunması, tarixi faktların müqayisəli təhlil olunması imkanları ilə əlaqədardır;

*Tədqiqatın praktiki əhəmiyyəti* – respublikamızda sığorta təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar daha optimal mexanizmlərinin işlənilib hazırlanmasında tarixi təcrübədən yararlanma imkanlığı;

*Tədqiqatın orijinallığı və elmi yeniliyi:* tədqiq edilən problem, müəyyən edilən bir çox faktlar ilk dəfə olaraq elmi dövriyyəyə çıxarılır.

**Açar sözlər:** Azərbaycan iqtisadiyyatı, sığorta işi, sığorta xidmətləri, əmlakın sığortası.



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1.Giriş

Sığorta işi iqtisadiyyatın və ilk növbədə bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsi və elementlərindən biridir və burada sığorta bazarı kimi diqqəti cəlb edir. Sığorta təsisatları və iqtisadi subyektlər bir-birinə daima qarşılıqlı güclü təsir göstərməkdədir. Sığorta işinin təşkilinin başlıca təyinatı təkcə müəssisələrin, əhalinin təbii və digər fəlakətlərdən maraqlarının qorunması deyil, eyni zamanda, iqtisadi subyektlərin maraqlarının bazar konyunkturasındakı dəyişikliklərdən, öncədən nəzərdə tutulmayan hadisələrin əlverişsiz gedişatından qorunmasını təmin edir. Sığorta şirkətləri iqtisadi agentlərin pul vəsaitlərinin yığılmasında böyük rol oynayaraq, sonradan həmin vəsaitlərin gəlirli aktivlərə, depozitlərə, qiymətli kağızlara və ipotekalara yatırılmasında böyük rol oynayırlar. Məhz bu baxımdan sığortanı maliyyə sisteminin tərkib hissəsi kimi də qavrayanlar var [8, s. 239]. Digər əhəmiyyətli məsələ sığorta şirkətlərinin və sığorta subyektlərinin, eyni zamanda, vergi ödəyən subyektlər qismində çıxış etməsi də xüsusi olaraq qeyd olunmalıdır.

Qeyd etmək lazımdır ki, 1991-ci ilin axırlarına kimi respublikamızda sığorta işi iki sığorta təşkilatının Azərbaycan Respublikasının Dövlət Sığorta Şirkətinin və SSRİ-nin xarici dövlət sığorta təşkilatının Bakı şəhərindəki şöbəsinin inhisarı altında idi. Milli sığorta bazarı Azərbaycanda 1992-ci ilin əvvəlindən formalaşmağa başlamışdır. Azərbaycan Respublikasının Milli Məclisi 1993-cü ildə "Sığorta haqqında" Azərbaycan Respublikası Qanununu qəbul etdi müvafiq olaraq bundan sonra qanunun tələblərinin icra edilməsi üçün sığorta işinin inkişafına təkan verən müxtəlif normativ hüquqi sənədlər hazırlandı. Respublikamızda sığorta xidmətlərinin həcminin artırılması, sığorta təşkilatlarının maliyyə sabitliyinin möhkəmləndirilməsi, sığorta işinin inkişafına yönəldilmiş kommersiya siyasətinin həyata keçirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Lakin bütünlükdə sığorta işinin təkmilləşdirilməsi və sığorta bazarının respublikamızda inkişafı məsələsi öz aktuallığını saxlayır. Bu xüsusda bir faktı da qeyd etmək yerinə düşərdi ki, müasir dövrdə sığorta xidmətləri və sığorta əməliyyatları mürəkkəb və çoxşaxəli xidmətlər sistemi və kompleksi kimi diqqəti cəlb edir və əhali arasında ən geniş yayılmış sığorta xidmətlərindən istifadə olunmasında başlıca istiqamətlərdən biri əmlakın sığortasıdır. Buraya bina və tikililərin, təsərrüfat subyekt və obyektlərinin, nəqliyyat vasitələri və s.-nin sığortalanması daxildir, bütünlükdə bu istiqamətdə 14 növ sığorta xidmətləri göstərilməkdədir. Sığorta xidmətlərinin göstərilməsində digər əhəmiyyətli istiqamət şəxsin, insan həyatının, övladların, nigahın, əmək qabiliyyətinin və s. nin sığortalanması təşkil edir. Dünya praktikasında bu istiqamətdə 9 növ sığorta xidmətləri geniş yayılmışdır. Nəhayət, sığorta xidmətlərində üçüncü başlıca istiqamətlər beynəlxalq tariflərə əsaslanan xarici iqtisadi əlaqələrdə ticarət iqtisadi məzmun daşıyan əməliyyatların sığortalanmasıdır [4, s. 783-784].

Ümumiyyətlə milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi,

cəmiyyətdə sabitliyinin və təhlükəsizliyinin təmin olunması sığorta institutları sistemini daha təkmilləşdirilməsini tələb edir. Bunun üçün isə birinci növbədə sığorta işinin daha yaxşı təşkil olunması üçün yeni ideyalara, mövcud institusional problemlərin daha optimal həlli yollarının müəyyənləşdirilməsinə ehtiyac vardır. Bütün bunlar isə yenə də tarixi təcrübədən, beynəlxalq praktikanın müsbət örnəklərindən yararlanmadan mümkün deyil. Yəni XX əsrin 20-30-cu illərində respublikamızda sığorta işinin təşkili və iqtisadi ədəbiyyatlarda səslənən fikirlərin araşdırılması bəhs edilən məqsədlərə xidmət edir. Çünki sığorta institutlarının müasir dövrdə respublikamızda günün tələblərinə uyğun formalaşdırılması sözügedən təsisatların tarixi inkişaf və təkamül prosesi araşdırılmadan və əldə edilmiş tarixi təcrübədən yararlanmadan mümkün deyil.

## 2. Dünya praktikasında sığorta işinin təşkilinin təkamülü prosesi

Sığorta institutlarının formalaşması və inkişafı tarixinin araşdırılması ilə məşğul olan tədqiqatçılar hesab edirlər ki, sığortalanmanın ilkin formaları hələ qədim dövrlərdə meydana gəlmişdir və sığorta işi uzun əsrlər ərzində qeyri kommersiya fəaliyyəti növündən kommersiya fəaliyyəti növünə kimi inkişaf yolu keçmişdir. Sığorta işinin təşkili  bəşər tarixinin ən erkən dövrlərinə gedib çıxır və yaranması insanların mövcud çətinlikləri birgə aradan qaldırmaq zərurətinin dərk etmələri ilə əlaqədardır.

Sığorta işinin təşkilinin ən qədim dövrlərdə nümunəsi kimi Hammurapi (*e.ə. 1760-cı ildə*) qanunlarında təsbit olunmuş müddəalar göstərilə bilər. Burada çarvadarlarla tacirlər arasındakı sövdələşmə qaydaları  əks olunmuşdu, yəni ticarət malları daşınarkən, dəvə karvanına quldur basqınları və yaxud yük daşıyan dəvələrin tələf olması zamanı zərərin birgə ödənilməsi haqqında çarvadarlar və tacirlər arasında ümumi razılığın əldə olunması qaydalarını əks etdirən  müddəalar var idi. Daha sonra Qədim Romada və orta əsrlər Avropasında peşə və dini əqidə prinsiplərinə görə xüsusi kollegiyalar,  birlik  və ittifaqlar, gildiyalar yarandı. Sözügedən təsisatlara kollegiya və birlik üzvləri vaxtaşırı müəyyən vəsaitlər ödəyirdilər. Tədricən sığorta ödənişlərinin müəyyən kassalara ödənilməsi işi təşkil olunmağa başladı və burada başlıca məqsəd sığorta təsisatlarının üzvlərinin bir-birinə qarşılıqlı yardım mexanizminin təşkil olunması idi və diqqəti cəlb edən başlıca cəhət şəxsin sığortalanmasının bəzi elementlərinin yaranması faktıdır [7, s. 53, №8, 2001]. Tarixi ədəbiyyatlarda Sığorta əməliyyatlarının kommersiya xarakteri alması XIV əsrdə İtaliyada dəniz yolu ilə daşınan ticarət yüklərinin sığortalanması prosedurlarının müəyyənləşdirilməsi ilə əlaqələndirilir. Həmin dövrdə dənizdə gəmilərlə yükləri daşınan tacirlər tamamilə və yaxud qismən böyük itkilərlə üzləşmək risklərindən sığortalanırdılar. Maklerlərlə nəqliyyatçılar arasındakı kommersiya münasibətləri birjalar vasitəsi ilə uzlaşdırılırdı. Digər diqqətəlayiq fakt kimi 1310-cu ildə Bryüqqe

(Almaniya) şəhərində "Sığorta Palatası" təşkil olunması göstərilə bilər. Sözügedən palatanın yaradılmasında məqsəd tacirlər və sənətkar gildiyalarının üzvlərinin maraqlarının qorunması idi. Daha sonra Avropada sığorta işində növbəti ciddi addımlar Böyük Coğrafi Kəşflərdən sonra atıldı. 1468-ci ildə Venesiya dəniz sığortası kodeksi qəbul olundu. Məhz həmin vaxtdan etibarən dünya praktikasında peşəkar sığorta işçilərinin meydana gəldiyi iddia olunur. Sığortaçı sahibkar sığorta mükafatının ödənilməsi qarşılığında öz əmlakı ilə dəniz yolları ilə daşınan yüklərin təhlükəsizliyinə təminat verirdi. Əgər yüklər zərər görmədən nəzərdə tutulmuş məntəqəyə çatdırılardısa, müştəri tərəfindən ödənilən sığorta mükafatı sığortaçı sahibkarda qalırdı. 1666-cı ildə Londonda böyük yanğın hadisəsindən sonra bina və tikililərin sığortalanması işi təşkil olundu. Lakin sığorta işinin daha mütəşəkkil formada təşkili XVII əsrdə Londonda Eduard Lloydun qəhvəxanasında başlamışdır. Dəniz yolu ilə yükləri daşınan tacirlər Lloydun qəhvəxanasında bir yerə yığışaraq xüsusi fondun yaradılması üçün ümumi razılığa gəldilər. Təbiidir sığorta işi Avropada, Amerikada XVIII-XX əsrlərdə də inkişaf edərək iri beynəlxalq sığorta şirkətlərinin yaranmasına qədər, birja əməliyyatlarının sığortalanmasına qədər və bu işin təşkil olunmasında ən qabaqcıl texnologiyalardan istifadə olunmasına kimi inkişaf yolu keçmişdir və bu proses zəmanəmizdə də davam edir. Lakin bizi maraqlandıran əsas məsələ Azərbaycanda sığorta işinin təşkilinin tarixi təkamül prosesinin məzmunu ilə əlaqədar gerçəkliklərdir.

## 3. Azərbaycanda sığorta işinin təşkili tarixindən

Azərbaycanda sığorta işi neftin sənaye üsulları ilə hasilatının təşkili və daşınması, bu istiqamətdə sahibkarlıq fəaliyyətlərinin canlanması ilə əlaqədardır. XIX əsrin axırlarında Azərbaycanın neft sənayesinə xarici investorların cəlb edilməsi ilə, ilk neft və gəmiçilik şirkətlərinin yaranması ilə sığorta işinin təşkilinin mütəşəkkil xarakter almasına şərait yaranmış olur və bu zaman sənayeçilərin qarşılıqlı sığortası, yanğından sığorta, vətəndaşların şəxsi əmlakının sığortası geniş yayıldı. Məhz bu dövrdə Azərbaycanda əsasən dəniz gəmilərinin sığorta edilməsi üzrə ixtisaslaşmış ingilis şirkəti "Lloyd"un filialları, habelə "Rus Lloyd"un və Almaniyadan olan ingilis şirkətinin iki nümayəndəliyi, Rusiya və İranın sərhəd limanlarına qədər daşınan yüklərin sığortası ilə məşğul olan "Repman və Rust" ticarət evi ilə təqdim edilən "Şimali Alman Lloydu", həmçinin gəmilərin və yüklərin sığortasını aparan "Alman, Livantiya xətti" Cəmiyyəti fəaliyyət göstərməyə başlayırlar və bütün bu işlərin təşkilində rus şirkətlərinin rolu xüsusi ilə böyük olmuşdur. 1912-ci ilə aid tarixi məlumatlara görə artıq Bakıda 30 sığorta cəmiyyəti və agentliyi fəaliyyət göstərirdi və sığorta işində üstün mövqe, hegemonluq ingilis, alman, rus şirkətlərinə məxsus idi. Sözügedən şirkətlər Azərbaycanda yaratmış olduqları şirkətlərin filialları vasitəsi ilə söz sahibi idilər. Bütün bunlara baxmayaraq həmin dövrdə Qafqazda formalaş-

maqda olan, ənənəvi tarixi ədəbiyyatlarda milli burjuaziyanın nümayəndələri kimi xarakterizə olan işgüzar Azərbaycanlı zümrə də sığorta işinin təşkili istiqamətində, sığorta bazarında da müəyyən işlər görməkdə idilər. Dövlət Bankı şöbəsinin uçot-ssuda komitəsinin üzvləri: Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Ələkbər Dadaşov, Mustafa Rəsulov və başqaları maliyyə və fond bazarları ilə yanaşı sığorta işinin təşkilində böyük rol oynamışlar [3, s. 12-13]. Nümunə üçün yuxarıda adları çəkilən işgüzar zümrənin nümayəndələrinin vəsaitləri hesabına bir sıra xeyriyyəçilik fondlarının yaradılması, həmin fondlar vasitəsi ilə birbaşa təyinatı üzrə Azərbaycan əhalisinin müxtəlif sosial təbəqələrinə yardımların göstərilməsi və s. kimi tədbirlər qeyd oluna bilər.

Daha bir maraqlı fakt kimi qeyd olunmadır ki, Rusiyada Sığorta Qanunlarına (1912-ci il 23 iyun) əsasən 1912-1914-cü illərdə xəstələrə yardım kassalarının və ali sığorta idarələrinin yaradılması nəzərdə tutulurdu. Qanunlar Avropa Rusiyasına və Qafqaza aid edilirdi və eyni zamanda fabrik və mədən müfəttişlərinə tabe olan müəssisələrin fəhlələrinə aid edilirdi. Bakı neft sənayesi rayonu Qafqaz sığorta dairəsinə daxil edilmişdi. Sığorta qanunlarının həyata keçirilməsinə nəzarət üçün quberniya idarələri yaradıldı. Yerli sığorta idarələrinin üzvlüyünə 25 yaşından yuxarı, milliyətcə rus olan, savadlı, məhkəməyə düşməyən fəhlələr seçilə bilərdi. Bakı quberniyasında xəstələrə yardım kassaları nizamnamələrinin müzakirəsinə 1913-cü ilin oktyabrında başlanmışdı. Lakin 1914-cü ilin yay aylarında isə Bakı quberniyasında sığorta kompaniyası tamamilə dayandırıldı [2, VIII c, s.486].

Daha sonra diqqətin Cümhuriyyət dönəmində bir sıra rəsmi və ictimai siyasi tribunalarda sığorta məsələləri ilə əlaqədar formalaşmış mövqelərə yönəldilməsi yerinə düşərdi. Azərbaycan Parlamentinin 1918-ci il 18 dekabrda keçirilən ikinci iclasında Müsavat partiyasının bəyannaməsində fəhlə məsələsi ilə əlaqədar partiya məramnaməsinin müddəaları səslənmişdi. Burada 8 saatlıq iş günü, fəhlələrə ildə bir aylıq məzuniyyət verilməsi, gecə xidmətinin qadağan olunması, 16 yaşınadək uşaqların işləməsinin qadağan olunması, 16-18 yaşlarında olanların 6 saatdan artıq işlədilməməyi, qadınların səhhətinə və fiziki imkanlarına uyğun olmayan işlərə qəbul edilməməyi, hamilə qadınlara güzəştlərin edilməsi, müəssisələrdə işləyən qadınların südəmər uşaqları üçün xüsusi yerlərin ayrılması vəzifələri ilə yanaşı, fəhlələrin sığorta edilməsi, müəssisələrdə tibb xidmətlərin təşkili kimi vəzifələrində reallaşdırılması da nəzərdə tutulmuşdu. Yəni fəhlələrin sığorta olunması məsələsi məramnamənin 45-ci müddəasında əks olunmuşdu. Sözügedən müddəada qeyd olunurdu ki, tamamilə və ya qismən işləmək qabiliyyəti itmiş olan əmələlər (*fəhlələr*) dövlət tərəfindən xüsusi bir fond (*sərmayə*) hesabına sığorta olunacaqlarıdır. Bu fond sərmayədarlardan alınan xüsusi bir vergi hasilatından yaranacaqdır [1, II c., s. 41]. Göründüyü kimi Cümhuriyyət dönəmində sığorta əməliyyatlarının həyata keçirilməsi ilə əlaqədar fikirlər birinci növbədə cəmiyyətdə sosial ədalətin və sosial harmoniyanın təmin olunması vəzifəsinin həllinə istiqamətlənmişdi.

Bundan sonra diqqətin 20-30-cu illərdə sığorta işinin təşkili ilə əlaqədar tarixi faktlara yönəldilməsi yerinə düşərdi.

## 4. XX əsrin 20-30-cu illərində sovet məkanında sığorta işinin təşkili sahəsində institusional situasiya

Öncə diqqətin bolşeviklərin sığorta işinin təşkili sahəsində sovet Rusiyasında və daha sonra bütün sovet məkanında həyata keçirdikləri tədbirlərə yönəldilməsi yerinə düşərdi. Qeyd etmək lazımdır ki, bolşeviklər Rusiyada hakimiyyətə gəldikdən sonra bank və sığorta işinin milliləşdirilməsi istiqamətində tədbirlər görməyə başladılar. Sığorta işinin milliləşdirilməsi iki mərhələdə həyata keçirilmişdir. Birinci mərhələdə bütün sığorta xidməti növləri üzərində dövlət nəzarəti qoyulmuş, ikinci mərhələdə isə bütün sığorta xidmətlərinin dövlət inhisarı altına alınması həyata keçirilmişdir. Bu xüsusda diqqəti Rusiya Sovet Federativ Sosialist Respublikasının Xalq Komissarları Sovetinin 1918-ci il 23 mart dekreti cəlb edir. Dekretdə sosial sığorta istisna olmaqla bütün sığorta xidməti növləri dövlət nəzarəti altına alınması təsbit olunurdu. Müvafiq işlərin həyata keçirilməsi üçün Sığorta işləri üzrə Komissarlıq yaradıldı. 1918-ci ildə noyabrın 28-də "Rusiya Respublikasında Sığorta işinin təşkili haqqında" dekretdə isə özəl sığorta şirkətlərinin və cəmiyyətlərinin ləğv olunması, bütün sığorta xidmətləri üzərində dövlət nəzarətinin yaradılması nəzərdə tutulurdu. Lakin bu dekretlə dövlət sığorta təşkilatının yaradılması təsbit olunmurdu. Sığorta işi ayrı-ayrı təşkilatlara həvalə olunmuşdu. Məsələn, Rusiya Ali Xalq Təsərrüfatı Şurasında yanğından-sığorta şöbəsi əmlakın sığortası işinə baxırdı. İnsan həyatının uzun müddətli sığortası Əmanət Kassalarına həvalə olunmuşdu. 1920-ci ildə dekabrın 18-də insan həyatının və əmlakın sığortalanması ləğv edildi. Lakin sonralar Yeni İqtisadi Siyasət şəraitində sığorta işi yenidən gündəmə gəldi və 1921-ci il oktyabrın 6-da Rusiya Sovet Federativ Sosialist Respublikasının Xalq Komissarları Sovetinin "Dövlətin Əmlakının Sığortalanması" dekreti qəbul olundu. Dekretdə bütün şəhər və kənd yerlərində xüsusi təsərrüfatların yanğından zərər görməsindən, heyvanların tələf olmasından, əkin sahələrini dolu vurmasından, quru və su yollarının qəzalardan sığortalanmaların təşkili, şəhərlərdə və kəndlərdə yerli sığorta orqanlarının yaradılması nəzərdə tutulurdu. Xalq Maliyyə Komissarlığı tərkibində Baş Dövlət Sığorta İdarəsi yaradıldı. Dövlət tərəfindən əmlakın sığortalanması işinin təşkili pul vəsaitlərinin bir hissəsinin müxtəlif kanallarla dövlətin əlində cəmlənməsinə, valyuta və maliyyə sisteminin qismən sabitləşməsinə, daha sonra iqtisadiyyatın sabitləşməsinə səbəb oldu. 1926-1932-ci illərdə dövlət əmlakının icbari sığortalanması işi yüksək templərlə inkişaf etməyə başladı. 1922-ci il 6 iyul dekretində "Qosstraxa" insan həyatının və bir sıra bədbəxt hadisələrdən könüllü sığortalanmaları təşkil etməyə icazə verilirdi. Sığortalanmaların dövlət inhisarına alınması 1925-ci il sentyabrın 18-də "SSRİ-də Dövlət Sığortası haqqında Əsas-

namənin" SSRİ Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarları Soveti tərəfindən təsdiq olunmasından sonra başlanır. Burada istisnalar kooperativ müəssisələri, Nəqliyyat Komissarlığı, Poçt və Rabitə Komissarlıqları üçün nəzərdə tutulmuşdu. Kooperativ müəssisələrində əmlakın qarşılıqlı olaraq kooperativ sığortalanması nəzərdə tutulmuşdu. Nəqliyyat Komissarlığına sərnişinlərdən daşınan yüklər əvəzində xüsusi verginin yığılması, Poçt və Rabitə Komissarlığına poçtla göndərilən yüklərin sığortalanmasını təşkil etmək həvalə olunmuşdu. 1930-cu ildə dövlət sığorta idarələri sistemi ləğv edildi. Ölkə daxilində əmlakın sığortalanması maliyyə orqanlarına, insan həyatının uzun müddətli sığortalanması isə Əmanət Kassalarına tapşırılmışdı. Lakin belə institusional dəyişiklik özünü doğrultmadı. Çox keçmir ləğv edilmiş dövlət orqanları bərpa olunur. 1931-ci ildə ləğv edilmiş könüllü sığortalanma 1934-cü ildə bərpa olundu. Əmlakın dövlət tərəfindən sığortalanması, xüsusən də fərdi təsərrüfatların, birinci növbədə kənd yerlərində sığortalanması geniş tətbiq olunmağa başlanıldı. İnsan həyatının sığortalanmasında da ziddiyyətlər özünü büruzə verirdi. 1929-cu ildə ölkədə kollektiv sığortalanma tətbiq olundu və sürətlə yayılmağa başladı. Sığorta ödənişləri ölüm halları və iş qabiliyyətinin itirilməsi zamanı edilirdi. Müqavilələr kollektiv surətdə işçi heyətinin 75%-nin iştirakı ilə bağlanılırdı. 1938-ci ildə bu faiz göstəriciləri 40%-qədər endirildi. 1936-cı ildə sentyabr ayında könüllü fərdi sığortanın tətbiq olunmasına başlanıldı. Eyni zamanda, əmlakın və insan həyatının könüllü sığortası işinin təşkilində sığorta agentləri şəbəkəsinin yaradılması böyük rol oynamışdır. Müharibədən öncə SSRİ-də sığorta işinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilmiş tədbirlərin istiqamətləndirilməsi baxımından iki dekret xüsusi olaraq qeyd olunur. Bunlardan birincisi sovet hökumətinin 1938-ci ildə fevralın 3-də "Müəssisələrin, idarə və təşkilatların mülkiyyətinin dövlət tərəfindən sığortalanması haqqında" Qərarı və SSRİ Ali Sovetinin qəbul etdiyi 1940-cı il 4 aprel "İcbari maaş sığortalanması Qanunudur". Qanuna əsasən, bütün əmlak və fəaliyyət növləri üzrə icbari sığortalanmalar tətbiq olundu.

Yuxarıda göstərilən tarixi faktlar sığorta işinin təşkili sahəsində bütünlükdə postsovet məkanında baş verən institusional prosesləri özündə əks etdirir. Maraqlı sual yarana bilər ki, tədqiq olunan illər ərzində Azərbaycanda sığorta işinin təşkili və müvafiq dəyərləndirmələrlə əlaqədar hansı tarixi faktlar müəyyənləşdirilmişdir.

## 5. XX əsrin 20-30-cu illərində Azərbaycanda sığorta işinin təşkili məsələləri

Azərbaycanda sosial sığorta 1922-ci il aprelin 1-dən Xalq Komissarları Sovetinin 24 aprel dekreti ilə tətbiq edildi. Dekretin I bəndində yazılmışdı ki, dövlət, ictimai, kommunal, kooperativ müəssisələrdə, konsessiyalarda, icarəyə verilmiş xüsusi müəssisələrdə əmək qabiliyyətinin müvəqqəti, qismən, tamamən itirildiyi, işçinin dünyasını dəyişdiyi hallarda, işsizlik zamanı sosial sığorta tətbiq olunur. Qeyd etmək

lazımdır ki, bu dekretin Rusiya Sovet Federativ Sosialist Respublikasında (RSFSR) qəbul edilən 1921-ci il 15 noyabr dekretindən heç nə ilə seçilmirdi. Yalnız fərq ondan ibarət idi ki, RSFSR-də dekretin icrası Xalq Sosial Təminat Komissarlığına, Azərbaycanda isə Xalq Əmək Komissarlığına həvalə edilmişdi. Lakin sonradan RSFSR-də də sosial sığorta məsələləri Əmək Komissarlığının öhdəsinə buraxıldı. Sonra 1922-ci il mayın 17-də Azərbaycanda sosial sığorta işini təşkil edəcək təşkilatlar haqqında Xalq Komissarları Sovetinin sərəncamı verildi. Burada Əmək Komissarlığına tabe edilən və sosial sığorta işini təşkil edən təşkilatların quruluşu və vəzifələri təsbit edilirdi. Bunlar aşağıdakılardır: Xalq Əmək Komissarlığı tərkibində Sığorta Şurası, tərkibində sədrdən başqa Azsovetdən, həmkarlar ittifaqından 4 nəfər, Səhiyyə Komissarlığından, Xalq Əmək Komissarlığından, Azneftdən, Ali İqtisadi Şuradan hər birindən 1 nəfər daxil edilmişdi. Azərbaycan Həmkarlar İttifaqının Sığorta Şurasının işinə müdaxilə etmək ixtiyarı yox idi. Lakin bəzi mühüm məsələlər AHİŞ-in Rəyasət Heyətinin iclasında müzakirə edilməli idi. Eyni zamanda, bütün Zaqafqaziya hüdudlarında vahid Sığorta Şurasının yaradılması istiqamətində işlər aparılırdı. Zaqafqaziya Sığorta Şurasına Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası Əmək Komissarlığı, Maliyyə Komissarlığı, Zaqafqaziya Bürosu, hər respublikanın Sosial Sığorta idarələrindən nümayəndələrin daxil olması gözlənilirdi.

Daha sonra 1922-ci ildə mayın 18-də Xalq Komissarları Sovetinin işsizlərin sosial təminatı, iyulun 2-də əmək qabiliyyətinin müvəqqəti itirilməsi zamanı sosial təminat və əlavə müavinətlər haqqında, iyunun 2-də əllilik və fatal sonluqlarda sosial təminat haqqında sərəncamları verildi [9, s. 16-18, №23, 1922]. Müvafiq olaraq iqtisadi ədəbiyyatlarda respublikada sosial sığortanın təşkilinin gedişatı ilə əlaqədar müəyyən materiallar dərc olunmaqda idi. Həmin dövrdə "İqtisadi Xəbərlər"də dərc olunmuş materialda bildirilirdi ki, Azərbaycanda əmək qabiliyyətinin müvəqqəti itirilməsi zamanı sosial sığorta işi müəyyən səviyyədə təşkil edilsə də, artan işsizlik şəraitində, işsiz və əlil işçilərin sosial təminat işi acınacaqlı vəziyyətdədir. Bu səbəbdən də Azərbaycanda sosial təminat orqanları tərəfindən ilk növbədə sığortanın 2 növünün tətbiq edilməsi vacibdir. İyun ayından işsizlərə müavinət məsələsi ilə məşğul olan Təqaüd şöbəsi fəaliyyət göstərir, işsizlərə vəsaitlərin verilməsində nöqsanlar var. Burada ödənişlər naturallaşdırılmışdır. İşsizlərə yardımın pul ilə deyil təşkil edilmiş naharlar formasında verilməsi daha yaxşı olar. Çünki mövcud qaydalara görə işləyən fəhlədən, işsiz fəhləyə daha çox müavinət düşür. Bu isə düzgün deyil [9, s. 16-18, №23, 1922].

Sonra diqqəti 20-ci illərin sonlarında Azərbaycan dövrü mətbuatında sığorta işinin təşkili ilə əlaqədar dərc edilmiş bir sıra materiallar cəlb edir. Bu xüsusda diqqəti 1928-ci ildə mayın 30-da T.S.Soldatenkonun "Бакинский рабочий" ("Bakı fəhləsi") qəzetində "İnsan həyatının sığortalanması nə deməkdir?" sərlövhəsi ilə dərc edilən məqaləsi cəlb edir. Məqalədə sığortanın bu növü barəsində yazılırdı ki, insan həyatının sığortalanması insanın qocaldığı zaman və ya bədbəxt hadisələr zamanı

onun yaxın adamlarının təminatı işinin gerçəkləşdirilməsinə xidmət edir. İnsan həyatının sığortalanması məsrəf deyil, vəsaitlərin saxlanılmasının ideal formasıdır. Çünki hər hansı bir vəsaitin yığılması üçün uzun illər tələb olunur. Məsələn hər hansı bir insan 25 yaşında öz həyatını 25 il ərzində 1000 manata sığorta etdirsə, həmin insan 50 yaşına çatanda 1000 manat vəsait alır, yaxud o, vaxtından əvvəl dünyasını dəyişsə onda həmin vəsait onun yaxınlarına çatmalıdır. Daha sonra materialda göstərilirdi ki, İngiltərədə, ABŞ-da, Qərbi Avropada səhmdarlar sığorta edən şirkətlərin diqqət mərkəzində idilər. Əhalinin imkansız təbəqəsi isə Rusiya da daxil olmaqla inqilabdan əvvəl bu xidmətdən yararlana bilmirdilər. Hazır ki, dövrdə ölkəmizdə sığorta dövlətin əlindədir və əhalinin imkansız təbəqələri bu xidmətlərdən istifadə edə bilirlər [ 6, № 132, 1928].

1928-ci il iyulun 31-də "Бакинский рабочий" (*"Bakı fəhləsi"*) qəzetində "Kənd təsərrüfatında sığorta işi nə vəziyyətdədir" sərlövhəsi ilə növbəti material dərc olundu. Materialda yazılırdı ki, Fəhlə Kəndli Müfəttişliyi Azərbaycan SSR – də sığorta işinin vəziyyəti ilə əlaqədar araşdırmaları başa çatdırmışdır. Araşdırmalar zamanı məlum olmuşdur ki, sığorta agentlərinin sayı kifayət qədər deyil və onlar böyük ərazilərdə xidmət göstərə bilmirlər. Eyni zamanda, yerli hakimiyyət orqanları ilə sığorta agentləri arasında qeyri normal münasibətlər mövcuddur. Yerli hakimiyyət orqanları Dövlət sığortasının vəsaitlərindən müxtəlif təşkilatlara vəsait verilməsini tələb edirlər, bu isə kəndlilərə sığorta vəsaitlərinin vaxtlı-vaxtında verilməməyinə səbəb olur. Yerli idarəetmə orqanları dövlət sığortası aparatına kifayət qədər savadı olmayanları işə qəbul edirlər. Bu isə kadr axıcılığına səbəb olur. Son 16 ay ərzində 100 vəzifədə 469 nəfər yer dəyişdirmişdir. Bütün bunlar maliyyə xərcləri və itkisinə səbəb olmuşdur. 47 yerdəyişmədə 60.000 manat səf olunmuşdur. Baxmayaraq ki, qeydiyyat işi yaxşılaşdırılmışdır, dövlət sığortasında mükafatların yığılmasında gecikmələr var və bu isə vəsaitlərin tam yığılmamağına səbəb olur. Sığorta ödənişlərində ötən illərdən qalmış qalıqlarının yığılması yaxşı yerinə yetirilmir. Nəticədə, 220.000 manat sığorta ödənişi qalığından ancaq 40% -i yığılmışdır. Sığorta işçilərinin çatışmazlığı və hazırlıqsızlığı səbəbindən kəndlilərə ödənişlər haqqındakı məlumatlar 2 ay və daha çox müddətdə gec çatdırılır. Fəhlə Kəndli Müfəttişliyi bir sıra praktiki qərarlar qəbul etmişdir. Dövlət sığortasına sığorta agentlərinin sayını artırmaq və hər dairəyə bir sığorta agentliyinin yaradılması tapşırılmışdır. İşçilərin seçilməsinə xüsusi diqqət yetirilməsi, oktyabr-dekabrdan gec olmayaraq sığorta mükafatlarının yığılması işinin başa çatdırılması müvafiq qurumlara tapşırılmışdır. Eyni zamanda, sığorta ödənişləri edilmədiyi zaman ciddi tədbirlərin həyata keçirilməsi, əmlakın satdırılması tədbirlərinin həyata keçirilməsi də tapşırılmışdır. Həmçinin bəzi yeyinti və israf hallarına görə şəxsi heyətin tərkibində təmizlik işlərinin aparılması da müvafiq idarələr həvalə olunmuşdur [6, №189, 1928]. Dövrü mətbuatda dərc olunmuş materialdan görünür ki, əhalidən sosial sığorta ödənişləri yığılsa da sığorta xidmətləri vaxtında və keyfiyyətlə göstərilmir, sığorta

ödənişlərindən yığılmış vəsaitlər təyinatı üzrə deyil, formalaşmaqda və inkişaf etməkdə olan sovet bürokratik aparatının ehtiyacları üçün sərf edilməkdə idi. Bundan sonra 1928-ci ildə avqustun 20-də "Бакинский рабочий" ("Bakı fəhləsi") qəzetində İ.Sviridovun "Dövlət sığortasının vəzifələri" sərlövhəsi ilə dərc edilən digər maraqlı material diqqəti cəlb edir. Materialda yazılırdı ki, Azərbaycanda əsas kəndli təsərrüfatları heyvandarlıq və əkinçilik təsərrüfatlarıdır. Bu günə kimi atlar və öküzlər kəndli təsərrüfatında əsas qoşqu heyvanlarıdır. Bizim məqsədimiz traktorların bu qoşqu heyvanlarını tarlalardan sıxışdırıb çıxarmayana kimi həmin gücü qoruyub saxlamaqdır. Eyni zamanda məqalədə bildirilirdi ki, kənddə sığorta işinin əhatə dairəsi genişləndirilməli və bu iş kütləviləşdirilməlidir. Lakin bu iş həyata keçirilərkən qolçomaqların, antisovet elementlərin, seçki hüquqi olmayan şəxslərin sığorta ödənişlərinin, vergilərin yığılması işində çalışmaları müşahidə olunur, eyni zamanda "sığorta vergiləri", "sığorta güzəştləri" haqqında qolçomaq nağılları da yayılmaqdadır. Məqalədə kənddə bu kateqoriyaya daxil olan işçilər arasında müəyyən təmizlik işlərinin aparıldığı, bu işlərə kəndlilərin cəlb olunduğu və sözügedən işlərin təşkil olunmasının bir hissəsinin kənd sovetlərinin öhdəsinə düşdüyü də bildirilirdi. Daha sonra İ.Sviridov yazırdı ki, Dövlət sığortasının rayonlaşdırılması məsələsinin həlli sığorta agentliklərinin kəndə yaxınlaşdırılması və mübahisələrin həlli üçün qəza mərkəzlərində müvafiq instansiyaların yaradılması ilə mümkündür. Burada, eyni zamanda, idarəetmə orqanlarının aşağı həlqəsinin, xüsusən də sovetlərin plan işlərinin mərkəzində dövlət sığortasının təşkilinə xüsusi yer ayrılmasının vacibliyi, dövlət sığortası kompaniyasının sığorta işçilərinin sovetlərin, dairələrin plenumlarında və kənd yığıncaqlarında xüsusi yer ayrılmasının vacibliyi fikri də xüsusi olaraq qeyd olunurdu [6 №206, 1928]. Materialdan görünür ki, 20-ci illərin sonlarına doğru vergi və sığorta ödənişləri öhdəlikləri ölkə əhalisinin bütünlükdə üzərində ağır öhdəliklərdən biri olmasına baxmayaraq həmin xidmətlərdən yararlanmaq heç də hər kəs üçün mümkün deyildi. Xüsusən də mövcud rejimin səbatsız, etibarsız, əsassız olaraq sinfi düşmən kateqoriyasına daxil olmuş sosial təbəqə və qruplar üçün.

1928-ci il sentyabrın 26-da "Бакинский рабочий" (*"Bakı fəhləsi"*) qəzetində "Kustarların sosial sığortası" sərlövhəsi ilə dərc edilən materialda da diqqətəlayiq faktlar mövcuddur. Materialda yazılırdı ki, Bakıda 15.000 –dən çox kustarlar var, xüsusi kassa yaradılmışdır, kustarların əməkhaqlarının 8%-i həmin kassaya daxil edilir. Ümumi emalatxanalarda çalışan kustarlar artelin ödənişlərinin müəyyən hissəsini sığorta ödənişi kimi ödəyir, evlərdə çalışan kustarlar isə əməkhaqlarının müəyyən hissəsini sığorta ödənişi kimi ödəyirlər. 8%-lik ödəniş müqabilində kustarlar sığorta kitabçası alırlar. Kustar işçi xəstələnən zaman o, əgər evlərdə çalışan kustar işçidirsə, sığorta kassası onun orta aylıq əməkhaqqının 35%-ni, arteldə çalışan kustardırsa, onda onun əməkhaqqının 45%-ni ödəyir. Hamilə qadınlar doğuma qədər 8 həftə, doğumdan sonra 8 həftə müddətində işdən azad olunur və ayda 25 manat

vəsait alırlar. Kustarların sığortalanması könüllü və imtiyazlıdır. Çünki müəssisə və idarələrin fəhlə və qulluqçularının əməkhaqlarının 12%-i sığorta ödənişi kimi kassaya keçirilir. Kustarların sığorta kassasının müalicə şəbəkəsi yoxdur, lakin xalq səhiyyə komissarlığı ilə müqaviləsinə əsasən sözügedən komissarlığın tabeçiliyində olan tibbi müəssisələrdə kustarlar müalicə alırlar. Növbəti ildə kustarların sığorta kassası kustarlar üçün öz sanatoriyalarını icarəyə götürəcək və yaxud inşa etdirəcək. 1929-cu ilin yazından Azərbaycanda istirahət evləri və 30 sanatoriyada 200 yer kustarlar üçün ayrılacaq. Kustarlara hüquqi xidmət və yardımlar Azsementbirliyi və Sənaye şirkəti – kustarlar ittifaqına həvalə olunmuşdur [6, № 237, 1928]. Daha sonra diqqəti 1929-cu il yanvarın 3-də "Бакинский рабочий" qəzetində Azərbaycan sosial Sığorta Komitəsinin sədri Nauman və Maliyyə şöbəsinin rəisi Tiferis adından dərc edilən bir elan diqqəti cəlb edir. Sözügedən elanda evlərdə çalışan qulluqçu qadınlardan sosial sığortaların ödənilməsi ilə əlaqədar bəzi qaydalarla əlaqədar təlimatlar verilirdi. Burada sığortaçıların qeydiyyatdan keçməsi və sığorta ödənişlərinin sığorta nəzarətçisi və inkassatorlar tərəfindən toplanılması nəzərdə tutulurdu [6, №2, 1929]. Yuxarıda göstərilən dövrü mətbuatda dərc edilmiş məlumatlar belə nəticə çıxarmağa imkan yaradır ki, mövcud rejim sosial sığorta adı altında hər ay bəlli məbləğlərdə müəyyən vəsaitlərin büdcəyə daxil olması işini daha mütəşəkkil təşkil etmək əzmində idi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 15.000 dən çox qeydiyyatda olan və hər ay müntəzəm surətdə əmək haqlarının bəlli bir hissəsini sığorta kassalarına ödəməli olan sosial təbəqə üçün ölkənin 30 sanatoriyasında 200 yerin ayrılması, sözügedən xidmətlərin əhaliyə qeyri adekvat surətdə göstərildiyini və sadəcə olaraq sığorta öhdəliklərinin tədqiq edilən dövrdə vergi mükəlləfiyyətlərindən heç nə ilə seçilmədiyi qənaətinə gəlməyə imkan yaradır.

1929-cu il martın 15-də "Бакинский рабочий" (*"Bakı fəhləsi"*) qəzetində daha bir diqqətəlayiq material dərc olundu. Sözügedən material Azərbaycan Respublikası Sosial Sığorta Komitəsinin bəyanatı idi. Bəyanatda bildirilirdi ki, SSRİ Xalq Əmək Komissarlığı nəzdindəki İttifaq Sosial Sığorta Şurasının yanvarın 31-də qəbul olunmuş №87-li "Sosial sığorta ödənişlərin ödənilməsində yeni müddətlərin tətbiq olunması ilə əlaqədar qərarın" fevralın 24 və 26 da "Труд" ("Əmək") qəzetində dərc olunması ilə əlaqədar Azərbaycan Sosial Sığorta Komitəsi təklif edir:

1. Sığorta ödənişlərinin yeni müddətinin tətbiq olunması ilə əlaqədar aşağıdakı ödəniş müddətlərinə keçilsin: a) bu ayın 10-na kimi sığorta ödənişləri etməyənlər ödənişləri ayın 18-ə kimi müvafiq idarələrə ödəsinlər; b) bütün sığorta edilənlər bu ayın 22-dən gec olmayaraq sığorta ödənişlərini əməkhaqlarından, yəni fevral ayının ikinci yarısı üçün nəzərdə tutulmuş əməkhaqlarından ödəsinlər və c.) əmək haqlarının ödənilməsindən 3 gün sonra və mart ayının 27-dən gec olmayaraq fevral ayı üçün nəzərdə tutulmuş sosial sığorta ödənişlərinin 50%-i qədərini ödəsinlər (*Qüvvədə olan qanuna əsasən ayın 10-da ödəniş müddətinin sona çatdığı məbləğdən*).

*Əlavə:* Avans yerinə mart ayının birinci yarısı üçün ödənilən əməkhaqlarından dəqiq sığorta ödənişləri məbləğləri ödənilsin.

2. Aprel ayından başlayaraq ayda iki dəfə əməkhaqlarının ödənilməsindən 3 gün sonra kollektiv müqavilələrdə müəyyən olunmuş qaydalara əsasən hər ödəniş zamanı sığorta ödənişlərinin 50 %-i ödənilsin.

*Əlavə:* 5 nəfərdən çox olmayan sığorta edilənlər ayın 25-dən gec olmayaraq Azərsosial sığortaya əməkhaqlarının ödənildiyi vaxtları bildirsinlər, bu mümkün olmadıqda isə faktiki ödəniş vaxtları barədə məlumat versinlər.

3. Tərkibi 5 nəfərdən çox olmayan kollektiv qaydada sığorta edilənlər sığorta ödənişlərini ayda bir dəfə ayın 7-dən gec olmayaraq müvafiq idarələrə ödəsinlər.

4. Sığorta ödənişlərinin gecikdirilməsi cərimələrin tətbiq olunması və Azərbaycan SSR-in Cinayət Kodeksinin 168-ci bəndinə əsasən cinayət məsuliyyəti ilə cəzalandırılması nəzərdə tutulur. Bu cəzalar sığorta edənlərin sığorta ödənişlərinin müvafiq idarələrə ödəmədikləri hallarda da tətbiq olunur.

5. Qəza sığorta kassalarına sığorta ödənişləri qaydaları haqqında xüsusi olaraq məlumat veriləcək.

Göründüyü kimi, sosial sığorta da könüllülük prinsipi yerini icbari öhdəlik normalarına vermiş, müəyyən edilmiş öhdəliklərin məcburi yerinə yetirilməsi və bu öhdəliklərdən boyun qaçıranların cinayət məsuliyyətlərinə cəlb edilməsi qanunla təsbit olunmuşdu.

Mövcud rejim sığorta işinin genişləndirilməsi və müvafiq strukturların yaradılması istiqamətində institusional tədbirlərin həyata keçirilməsini davam etdirməkdə idi.

Bu xüsusda diqqəti 1929-cu ildə martın 16-da Azərbaycan İctimai Sığorta Komitəsinin plenumunda sığorta komitəsinin işi barəsində Nauman və Hilalovun çıxışları cəlb edir. Çıxışlarda qeyd olunurdu ki, Azərbaycanda 160.164 sığorta (*subyekti*) qeydə alınmış, 20 müstəqil sığorta kassası mövcuddur. Sığorta subyektlərinin 117.387-si Bakı dairəsində, qalanları qəzalardadır. Azərbaycanda sığorta idarəsi 6500 muzdura sığorta xidməti göstərir lakin bütün bunlar qənaətbəxş deyil sığorta işi təkmilləşdirilməlidir [5, №63, 1929].

Növbəti diqqətəlayiq material 1929-cu ildə aprelin 1-də "Бакинский рабочий" qəzetində "Qosstrax (dövlətsığorta) saxta aktlara qarşı mübarizədə" sərlövhəsi ilə dərc olundu. Materialda yazılırdı ki, Nuxa, Göyçay və Zaqatala qəzalarının kənd sovetləri çox zaman tələf olmayan, lakin kəsilmiş heyvanlar üçün saxta aktlar tərtib edirlər və bu aktlar əsasında müəyyən ödənişlər edilir. Agent və müfəttişlər tərəfindən 150 belə saxta akt müəyyən olunmuşdur. Məsələ ilə əlaqədar məsuliyyət daşımalı olan şəxslər məhkəməyə verilmişlər. Qosstrax saxta aktların bağlanması ilə mübarizə aparsa da bəla ləğv edilməmişdir. Kənd sovetlərindəki bir çox sığorta seksiyaları öz işlərinə səhlənkar yanaşırlar, həmin aktlara yoxlama aparmadan qol çəkirlər. Saxta aktları aşkar edən agentlər çox zaman hədələnirlər [6, №74, 1929].

AZƏRBAYCANIN
VERGİ JURNALI

Təbii ki, bu gün yuxarıda adları çəkilən qəzalarda bağlanmış sığorta aktlarının saxta və yaxud gerçək olmasını müəyyən etmək mümkün deyil. Lakin bir məsələ qaranlıq qalır ki, sığorta təsisatları sığorta edilən tərəfə heç bir vəsaitin ödənilməməsi üçün bağlanmış sığorta aktlarını sadəcə olaraq saxta elan etməklə, çox zamanda öz iradəsini əhaliyə qəbul etdirmək üçün inzibati tədbirlərdən istifadə etməkdən çəkinmirdi. Deyilən fikri 1929-cu il iyulun 29-da "Бакинский рабочий" (*"Bakı fəhləsi"*) qəzetində "Azərsosialsığorta bürokratik bataqlıqda" başlığı ilə dərc edilmiş materialdakı tarixi faktlar müəyyən mənada təsdiq edə bilər. Burada yazılırdı ki, Naxçıvanda pambıq zavodunda çalışan Məmməd Axundov iş vaxtı istehsalat qəzasında barmaqlarını itirmişdir. O, Naxçıvan Sığorta Kassasına əlillik pensiyasının təyin edilməsi haqqında müraciət etmişdir. Məmməd Axundov bir sıra sənədləri və ö cümlədən kənd sovetindən 7 may 1927-ci il tarixli "heç bir əmlakının olmadığını təsbit edən" № 100 arayışı, 1925-ci il iyunun 21-də pambıq zavodunda barmaqlarını itirməsi haqqında arayışı və aldığı əmək haqqı barəsindəki arayışı sığorta kassasına təqdim etmişdir. Süründürməçilik iki ildir ki, davam edir. Naxçıvan Sığorta kassası 1927-ci il iyulun 26-da Xalq Əmək Komissarlığına edilmiş müraciətə cavab istəsə də heç bir cavab verilməmişdir. Naxçıvan Sosial Sığorta Kassası Axundovun rəsmi olaraq müayinəsindən sonra 9 səhifəlik işi "Azərsosialsığortaya" göndərdi. Bütün bunlar 1927-ci il noyabrın 29-a qədər baş verən hadisələrdir. Azərsosialsığorta həkim komissiyasının qərarını geri qaytararaq ikinci dəfə Axundovun həkim müayinəsindən keçməsini tapşırdı. Martın 20-də sənədlər Bakıda həkim komissiyasına verildi. Martın 29-da Azərsosialsığorta Naxçıvan Sığorta Kassasına Axundovun Bakıya gəlməsi üçün yol xərcini ödəməsini tapşırdı. 1928-ci il mayın 10-da Bakı həkim komissiyası Axundovun əlilliyini təsdiq etdi və onun 3-cü dərəcəli əlil olduğu müəyyən edildi. Lakin Azərsosialsığortada başqa cür düşünürlər. Axundovun aclıq çəkməsi və təqaüd ala bilməməsi onların vecinə deyil.

Daha bir fakt kimi materialda göstərilirdi ki, 1928-ci ildə vətəndaş Qəhrəmanov ona təqaüdün təyin olunması haqqında Naxçıvan Sığorta Kassasına müraciət etdi, müvafiq olaraq Naxçıvan Sığorta Kassası da Azərsosialsığortaya müraciət etdi. Bütün sənədlər qaydasında idi. Bir neçə ay sonra əlil Qəhrəmanov dünyasını dəyişdi. Naxçıvan Sığorta Kassası çox yaxşı bilir ki, 72-ci bəndin müddəalarında nəzərdə tutulmuşdur ki, ailə başçısı olan təqaüdçünün iş qabiliyyəti olmayan ailə üzvləri heç bir əlavə tələblər edilmədən onun təqaüdünü almalıdırlar. Ancaq pensiya şöbəsinin rəisi Levçenko cavab verdi ki, 7 illik iş stajı haqqında şəhadətnamə tələb olunur. Azərsosialsığortanın pensiya şöbəsinin işçiləri xəstə fəhlələrə, əlillərə belə münasibət bildirirlər. Azərsosialsığortada bürokratlar yerləşiblər, bütün aparatı əməlli başlı silkələmək lazımdır. Qeyd etmək lazımdır ki, sözügedən materialın müəllifi N.Aralski idi [6, №174, 1929].

Göründüyü kimi, mövcud rejimi əhalinin sosial təminat işinin və o cümlədən əhaliyə göstərilən xidmətlərin yaxşı təşkil edilməsi deyil, bütünlükdə sığorta

ödənişlərinin əhalidən alınaraq dövlət büdcəsinə tez və daha çox daxil olmasını təşkil edən inzibati şəbəkənin yaradılması, institusional situasiyanın formalaşdırılması qayğısı daha çox düşündürürdü.

Artıq 20-ci illərin sonlarına doğru respublika çox şaxəli sovet sığorta şəbəkəsi formalaşmışdı. Azərbaycan SSR ərazisində 71 sığorta agentliyi fəaliyyət göstərirdi. Bu agentliklər və qəzalardakı sığorta təsisatları Mərkəzi İdarəyə, bu İdarə isə Zaqafqaziya Sığorta İdarəsinə tabe idi. Əhaliyə formal da olsa göstərilən sığorta xidmətləri qismində aşağıdakı xidmət növlərini qeyd etmək olar. Buraya 1) kənd əhalisinin əməkhaqlarının sığortalanması, 2) şəhər əhalisinin əməkhaqqının sığortalanması, 3) ayrı-ayrı sahələrin sığortalanması, 4) məsuliyyətsiz məmurların səhlənkarlıq və qərəz nəticəsində təşkilatlara vurduqları ziyanlardan təşkilatların sığorta edilməsi, 4) heyvandarlıq təsərrüfatlarında ev heyvanlarının sığortalanması, 5) kəndtəsərrüfatı bitkiləri və əkin sahələrinin sığortalanması, 6) fərdi sığortalanma, 7) zayom və obliqasiya tirajlarının sığortalanması daxil idi [10, s.83-90, №4,1929].

Bundan sonra diqqəti SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin 1937-ci il 21 mart qərarı cəlb edir. Sözügedən qərara əsasən Azərbaycan SSR-də kənd sovetlərinin pul, sığorta və natural ödənişlərinin yığılması səlahiyyətləri ləğv edilirdi. Müvafiq olaraq iyul ayının 1-dən vergi və sığorta ödənişlərinin yığılması yerli maliyyə şöbələrinə həvalə edildi. SSRİ Maliyyə Komissarlığının SSRİ XKS-yə təqdim etdiyi "Vergi və sığorta inspektor və müfəttişləri haqqında" əsasnaməsi də təsdiq edilmiş prosedurlar kimi təsbit olunurdu. Eyni zamanda Əsasnamədə Sığorta inspektor və müfəttişləri haqqında yeni qaydalar təsbit olunmuşdu. Yeni qaydalara görə hər rayon (şəhər) maliyyə şöbəsində sığorta müfəttişliyi yaradılmalı idi. Sığorta müfəttişliyinə baş sığorta müfəttişi rəhbərlik etməli idi. Hər rayon sahələrə bölünməli, müvafiq olaraq sığorta müfəttişləri də vergi müfəttişləri kimi vəzifəyə təyin olunmalı idilər. Baş sığorta müfəttişinə rayonda sığorta obyektlərinin qeydə alınması, sığorta aktlarının və sığorta zərərlərinin, sığorta ödənişlərinin müəyyən edilməsi, sığorta agentləri və işçilərinin fəaliyyətinə rəhbərlik, könüllü sığorta xidmətləri növlərinin müəyyən edilməsi daxil edilmişdi. Sahə sığorta inspektorları səlahiyyətlərinə sahə üzrə şəxsi sığortalama, ev əmlakının sığortalanması, könüllü sığortalanma xidmətləri və s. daxil edilmişdi. Bütün idarələr, müəssisələr və təşkilatlar məcburi qaydada sığortalanmalı, sığorta orqanlarına sığorta obyektləri barədə məlumat verməli idilər. Yeni qaydalarda sığorta inspektorunun sığorta olunan əmlakın vəziyyətini yoxlamaq, sığorta olunan tərəfin məsuliyyətsizliyini və təsərrüfatsızlığını müəyyənləşdirdiyi zaman rayon sığorta komissiyasının qərarını və müvafiq sığorta öhdəliklərini ləğv etmək səlahiyyətləri təsbit olunmuşdu. Sığorta inspektorlarının da fəaliyyətləri sığorta müfəttişləri tərəfindən təftiş edilməli idi. Eyni zamanda, sığorta işçilərinin təyinatı və işdən çıxarılması qaydası da vergi inspektorlarının təyinatı və işdən çıxarılmaları kimi müəyyən edilmişdi. Müvafiq olaraq SSRİ Xalq Komissarları Soveti və SSRİ Xalq Maliyyə Komissarlığı

tərəfindən təqdim edilən "Vergi və sığorta inspeksiyalarının işi barədə" geniş təlimatlarda hazırlanmışdı [6, 1937, №107]. Yuxarıda qeyd olunmuş tarixi məlumatlar bir daha deyilən fikirləri təsdiqləyir, yəni artıq mövcud rejim institusional qaydada vergi və sığorta işinin təşkili məsələlərini bir normativ sənəd əsasında müəyyən edirdi.

## 6. Nəticə

Dərc edilmiş materiallardan görünür ki, 20-30-cu illərdə sığorta işindən əhalinin müəyyən bir hissəsi, yəni qolçomaq, sinfi düşmən və s. kimi ittiham edilən şəxslər yararlana bilməzdilər, baxmayaraq ki, mükəlləfiyyətlərin ağırlığı əsasən onların çiyninə düşürdü. Digər tərəfdən sığorta təsisatları zəhmətkeş kütlələrin də maraqlarını təmin etmirdilər, süründürməçilik, zərərçəkənlərə laqeydlik və s. müşahidə olunmaqda idi. Əslində sığorta işi bir növ icbari ödənilməli olan vergi mükəlləfiyyəti xarakteri almışdı. Formalaşmaqda olan sosialist sığorta təsisatları məcburi qaydada geniş kütlələrin əməkhaqlarından hər ay müəyyən vəsaitlərin dövlət büdcəsinə daxil olmasını təmin edən institusional şəbəkəyə çevrilmişdi. Sığorta işində demək olar ki, könüllülük prinsipinin yerini icbarilik və məcburi öhdəliklər tutmuşdu. Müəyyən edilmiş öhdəliklərdən yayınma halları isə faktiki olaraq qeyri mümkün idi və totalitar rejimin xəzinə qaynaqlarından birinə çevrilmişdi. Eyni zamanda mövcud rejimi əhalinin sosial təminat işinin və o cümlədən əhaliyə göstərilən xidmətlərin yaxşı təşkil edilməsi deyil, bütünlükdə sığorta ödənişlərinin əhalidən alınaraq dövlət büdcəsinə tez və daha çox daxil olmasını təşkil edən inzibati şəbəkənin yaradılması, institusional situasiyanın formalaşdırılması qayğısı daha çox düşündürürdü. Fikrimizi daha bir fakt təsdiq edir ki, rejim institusional qaydada vergi və sığorta işinin təşkili məsələlərini bir normativ sənəd əsasında müəyyən etməsi faktı təsadüf sayıla bilməz.

## Ədəbiyyat siyahısı:

1. "Azərbaycan Xalq Cümhuriyyəti - 1918-1920. (1998). Parlament (Stenoqrafik hesabatlar), iki cilddə, Bakı. "Azərbaycan" nəşriyyatı. I cild, 976 s.
2. "Azərbaycan Sovet Ensiklopediyası" (1984). 10 cilddə. Bakı. "ASE", VIII c., 608 səh.
3. Xankişiyev B. (2006). "Sığorta fəaliyyətinin əsasları" (dərs vəsaiti). Bakı. 274 s.
4. Абалкин Л.И. (1999). "Экономическая энциклопедия", Москва. "Экономика", 1055 с. (*Abalkin L.İ. (1999). "İqtisadi ensiklopediya", Moskva. "Ekonomika", 1055 s.*).
5. "Kommunist" qəzeti, 1929, № 63.
6. "Бакинский рабочий" ("Bakı fəhləsi") qəzeti. 1928, № 132, №189, №206, №237, 1929, №2, №61, №74, №174, 1937, №107.
7. Губарь О. (2001)."Возникновение и эволюция института страхования". "Страховое дело". № 8, с. 53-58. (*Qubar O. "Sığorta institutunun yaranması və təkamülü". Sığorta işi. № 8, s. 53-58.*).
8. Райзберг Б.А. (1997). "Курс экономики", Москва. ИНФРА, 720 с. (*Rayzberq B.A. (1997)."İqtisadiyyat kursu, Moskva. İNFRA, 720 s.*).
9. "Экономический Вестник". (1922). (Еженедельный орган Высшего Совета АССР), Баку, №23 с.16-18. (*"İqtisadi xəbərlər" ASSR Ali İqtisadi Şurasının həftəlik orqanı, Bakı, 1922, №23, s.16-18.*).
10. "Экономический Вестник Азербайджана". (1929). (орган Высшего Экономического Совета и Государственной Плановой Комисии Азербайджанской ССР), Баку, 1929, №4, с. 83-90. (*Azərbaycanın İqtisadi Xəbərləri. (1929) (Azərbaycan SSR Ali İqtisadi Şurasının və Dövlət Plan Komissiyasının orqanı), №4, c. 83-90.*).

**Самандаров Сейфаддин Сабир оглы**
доктор философии по экономике, доцент
Национальная Академия Наук Азербайджана, Институт экономики

## Из истории организации страхового дела в Азербайджане: 20-30-е годы ХХ века

### Аннотация

*Цель исследования* – состоит в исследовании фактов, связанных с генезисом страховых институтов и институциональной историей в Азербайджане.

*Методология исследования* – ретроспективный анализ, сравнительные методы синтеза и дедукции.

*Результат исследования* – в историко-экономическом аспекте оценены вопросы организации функционирования страхового дела в 20-30-е годы ХХ века.

*Ограничения исследования* – связаны со специфичностью объекта исследования, трудностями доступа к необходимой научной информации и возможностями по проведению сравнительного анализа исторических фактов.

*Практическая значимость исследования* – возможность использования исторического опыта в разработке более оптимальных механизмов для усовершенствования функционирования страховых институтов в республике.

*Оригинальность исследования и научная новизна* – исследуемая проблема, некоторые определенные факты впервые вводятся в научный оборот.

**Ключевые слова:** *Азербайджанская экономика, страховое дело, страховые услуги, страхование имущества*

**Samandarov Seyfaddin Sabir oglu**

PhD in Economics, Institute of Economy
in Azerbaijan National Academy of Sciences

## "From history of the organizations of the insurance deal in Azerbaijan: 1920-30s years"

## Abstract

*Purpose* – analysis of genesis and facts of institutional history of insurance organization in Azerbaijan.

*Methodology* – retrospective, comparative analysis, synthesis and deduction methods.

*Finding* – forming of insurance is assessed in historical and economical aspects in Azerbaijan in 1920-30s years.

*Research limitations* – these are connected with specificity of the research object, opportunities of getting of scientific information and comparative analysis of historical facts.

*Practical implications* – possibility of the use from the historical experience in development of more optimum mechanism for improvement of insurance institutes in our Republic.

*Originality* – first time, the researching problem and determined some facts are entered into scientific turn in Azerbaijan.

**Key words:** *Azerbaijan economy, insurance deal, insurance facilities, insurances property.*

**JEL Classification Codes:** B2, G22, N14

Məqalə redaksiyaya daxil olmuşdur: 11.12.12.
Təkrar işləməyə göndərilmişdir: 20.12.12.
Çapa qəbul olunmuşdur: 15.02.13.